

**Anna Kordzaya-Samadaşvili**

*Gürcü nasiri və jurnalisti Anna Kordzaya-Samadaşvili Nyu-York İctimai Kitabxanasının (The New York Public Library) beynəlxalq qadınlar gününün bayram edilməsi ərəfəsində tərtib etdiyi dünyanın ən yaxşı qadın yazıçısı reytinqinə daxil olub. Siyahıya bütün dövrlərin və xalqların cəmi 365 məşhur qadın yazıçısı düşüb. Onların arasında Ceyn Ostin, Şarlotta Bronte, Hanna Arendt, Marqaret Etvud, Elfride Yelinek kimi məşhur söz ustaları da var.*

*Bir çox kitab və nəşrlərin müəllifi olan Anna Kordzaya-Samadaşvili "Berikoba", "Mən Marqaritayam" topluları, "Şuşanikin uşaqları", "Qağayını kim öldürdü", "Oğruların hökmdarı" kimi ədəbi hekayə və romanları ilə məşhurdur. Yazıçı 6 fevral 1968-ci ildə Tbilisidə doğulub. 1989-cu ildə Tbilisi Dövlət Universitetinin filologiya fakültəsini bitirib. Müxtəlif gürcü nəşrlərinin redaktoru olub. Berlinin İBA kitab agentliyinin reportyoru işləyib. "24 saat" nəşrinin jurnalisti kimi fəaliyyət göstərib. 2005-ci ildən "İsti şokolad" jurnalı ilə əməkdaşlıq edir.*

# EVƏ GEDİRƏM

*hekayə*

***Allah sənə nə lütf eləyib?***
***Üç xoşbəxtlik: yaddaş, ağıl və iradə***

***"Duxoborların həyat kitabı"***

Böyük çaya baxırdım. Sakit, lal idi. Etkən payı Günəşi işıq saçır, düşünürdüm: "Qoy qış gəlməsin, qoy həmişə günəşli və isti, bir də böyük çay olsun". Gəmi dümağ tüstü buraxa-buraxa, ağır-ağır gedirdi. Bərabərimizə çatanda salamlamaq üçün əlimi qaldırdım. Kişim də mənə baxıb əl yelləməyə başladı.

- Gözəldi, elə deyil?

- Hə, - dedim. - Bura çox gözəldi!

Kişim sol əlilə məni qucaqladı, ona bərk-bərk sığındım, beləcə dayanın gəmiyə əl eləyirdik: o, sağ, mənsə sol əlimlə.

Qucaqlaşıb dayanmışdıq, çox xoşbəxt idim, soruşdum:

- Hiss eləyirsən necə yaxşıdı, Hə?

- Hə, Qadın, - kişim dedi. - Hə, gözəldi.

Gözəl idi.

Sonra kimsə dizlərimdən yapışır.

- Nədi?..

- Yatağında kim var?

- Heç kəs, - cavab verirəm.

- Amma mənə elə gəlir, orda kimsə var.

Tina başımın üstündə dayanıb baxır. İnanmır. Niyə də inansın axı?! Tina mənim kim olduğumu bilir, bunu ona deməyin mənası yoxdu.

Hələ qaranlıqdı. Otaq soyuq deyil, amma bayırda şaxta var. "Başın soxmağa bir evi olmayanlar bədbəxt adamlardı..." - Kişim belə deyərdi.

Tina yatağına qayıdıb təzədən yuxuya gedir, mənsə durub mətbəxə gedir, kişimin deyəcəyi kimi, "başımı qatmağa" başlayıram: pəncərəni açır, güllərə su tökürəm... Bir sözlə, səhər işlərini görürəm. Amma hələ səhər açılmayıb.

Tinanın yatmasından istifadə eləyirəm: küncdəki köhnə kresloda əyləşib mürgüləməyə çalışıram, hələ çox tezdi, Allah bilir, bəlkə Tina xeyli yatacaq, bu müddətdəsə böyük çay, kişim və payız Günəşi mənə qayıdacaq...

Kişimlə bütün üzüb keçən gəmilərə əl eləyir, üstəlik, yerə enən təyyarələri alqışlayırdıq. Bunu mənə, o - kişim öyrətmişdi. Hər dəfə evdən çıxanda kişim özünü bayraqdar hesab eləyir, baş barmağından öpürdü, mən də barmağımdan öpüb göyə uzadırdım: "Yaşasın yeni gün! Allaha şükür ki, yeni səhər açıldı, biz birgə xeyirxah işlər görməyə gedirik!" Həmin məqamda kişim məni qucaqlayıb gülür, deyirdi ki, təriqətçi və şıltaqsan, mən də gülürdüm. O günlərdə gülüş yaxamdan əl çəkmirdi.

Kişim məni "Qadın" adlandırırdı - "Qadın dedi", "Qadına elə gəlir ki..." Şübhəsiz, adımı çox yaxşı bilirdi, amma mən QADIN idim!!!

Tina da deyir, sən qadınsan. Amma mən ondan ötrü bu sözün lap adi mənasında qadınam, sadəcə qadınam. Tina mənim üçün yalnız qadın deyil, həm də kişimin anasıdı. Axı sadəcə qadın olsaydı, məni başqa cür çağıra bilməzdi, ümumiyyətlə, mənimlə danışmağa, yaxud məni görməyə cürət eləməzdi, həm də hətta heç vaxt varlığımdan xəbər tuta bilməzdi. Amma qismət beləymiş, neyləyəsən: mənim bəxtimə Tina düşüb, o - Tinadı, mənsə - qadınam.

Tina kişimin anası olmasaydı, artıq lap çoxdan çıxıb getmişdim. Yenidən qurulmuş "xruşşovka"mı satıb puluna şahanə ömür sürə bilərdik. Nənəm dedi ki, gəlim, Tinanı da özümlə gətirim, amma onun baş verən hadisədən heç xəbəri yoxdu. Nənəm bilmir, mən də heç nə deməyəcəyəm. Daha ona qonaq gəlmədiyimə görə inciyir. Amma belə yaxşıdı. Hər şeyi bilməli deyil ki.

Axı mən bilirəm ki, hər cümə günü, hava necə olur-olsun - şaxtada da bürküdə də - nənəm dayanacağa çıxıb məni gözləyir. Elə bilir, yenə işləyirəm, yalnız istirahət günləri boş oluram, ona görə də onlar - nənəm, qar kimi ağ Dost və Lada - cümə günləri dayanacağın yanında gözləyirlər. Ladanı yalnız şəkillərdən tanıyıram, o it hələ o qədər də qocalmayıb. Dostsa artıq qocalıb, başı da dümağdı. Sən demə, Ladanı meşədə elə Dost tapıbmış. Nənəm danışırdı ki, yazıq iti orda qoyublar ki, canavar parçalasın, yazıq-yazıq zingildəyirmiş, Dostsa hay-küy qaldırıb, nənəm o yeri tapanacan nə əl çəkib, nə də sakitləşib. Nənəm Ladanın miskin halını görəndə yazığı gəlib, evə gətirib. Nənəm, bax, belə qadındı.

Tutağan olsa da, yad adamları xoşlamasa da Kişim və Dost dərhal dostlaşdılar. Başqa cür də ola bilməzdi, sakit, mehriban it olsaydı, canavarlar onu elə ilk payız parçalayardılar. Kişim isə Milad bayramına gələndə elə ilk baxışdan Dostun xoşuna gəldi, o, Dosta öz əllərilə qara rəngli yumşaq dəridən düzəldilmiş gümüşü kürəciklərlə bəzədiyi xalta bağışladı. O kürəcikləri, həqiqətən, at yüyəninin bəzəkli hissələrindən düzəltmişdi, lap boyunbağı kimi də gəzdirmək olardı, kişim alıb mənə bağışlamışdı, amma sonra soruşdu ki, onu Dostun boynuna taxsaq, incimərəm ki. Niyə inciyirəm axı, əksinə, sevinərəm! Kişimlə Dostun mehləşməsi xoşuma gəlirdi. Nənəmləsə - ümumiyyətlə, mənim, yoxsa kişimin nənəsi olduğunu ayırd eləmək mümkün deyildi - bir birinə əməlli-başlı heyran olmuşdular.

Kişimi ilk dəfə bura nənəmlə tanış eləməyə gətirən il evimizin damında iki leylək yuva qurmuşdu. İki leylək!.. Bu harda eşidilmişdi?.. Dost hiddətlə hürürdü. Nənəm deyirdi ki, iki leyləyin eyni vaxtda yuva qurması yaxşı əlamətdi, hər dəfə də ora baxanda ailənin sağ-salamat olması üçün dua eləyirdi. Leylləkləri ikisi də iri və gözəl idi, qanadlarını azca açıb bir müddət yuxarıdan bizə baxdılar, sonra başlarını dik tutub dimdiklərini şaqqıldatdılar, elə bil, dişiləri öz yanlarına səsləyirdilər: "Ay dişilər, görün necə qoçaq erkəklərik! Görün, size necə gözəl yuvalar qurmuşuq!"

- Hə, Dost, ağıllı ol, səs-küy salma, dişiləri ürkütmə! - Kişim deyirdi, amma Dost elə hey hürür, səsi xırıldayırdı, amma səsində hiddət yox, şənlik vardı.

Acığı tutanda Dostun necə hürdüyünü bilirəm... Allah göstərməsin!.. Tina yüzüncü kərə "Oğlum hardadı?" soruşanda, cavabımı qavrayıb-qavramadığından baş açmayanda mən də o cür hiddətlənirdim. Əvvəlcə nə deyəcəyimi bilmir, Tinanı həyəcanlandırmaq istəmirdim, sonra dərk elədim ki, bu heç onun vecinə də deyil. Həmişə də belə olmuşdu. Bəs indi bu onda maraq doğurmuşdu? Ümumiyyətlə, Tina heç vaxt heç nədən narahat olmur. Həm də heç nəyə sevinmir, heç nəyə acıqlanmır. Dəqiq yadımdadı ki, kitabımızda belə bir fikir var: "Cəhənnəm - işıqdan bixəbər adamlardır; onların içində şər ruhlar yaşayır".

Tina - cəhənnəmdi.

Əvvəllər belə deyildi. Mən həm bu, həm də o Tinayla ünsiyyətdə olmağa macal tapmışdım. Tina bir vaxtlar gənc, gözəl, bir qədər yüngülxasiyyət - tamam başqa cür qadın idi. Sonra qəlbini zülmət burdu, axırda Kişim məni atıb gedəndə mənə Tina, onunla birgə də bütöv bir zülmət qaldı. Üstəlik, nənəm və evim də qalmışdı, amma məndən çox-çox uzaqlardaydılar. Nənəm dedi ki, dua eləmək lazımdı. Amma Tina üçün dua eləyə bilmirdim. Özümü məcbur eləmək iqtidarında deyildim. Daim Kişim və nənəm üçün dua oxuyuram, özümə və Tinaya görə ağzımı da açmıram. Tina mənim xaçımdı - burda dua da kömək eləyə bilməz.

Kitabımızdakı sözləri yaxşı xatırlayıram: "Allah səndən nə istəyir? - Möminin bəhrələrin başa çatdırılmasını - başladığı kimi də bitir". Bu ağır yük çiynimə düşdü, elə hey onu gəzdirirəm. Bu qərarı özüm qəbul eləməmişəm, yükü çiynimə özüm götürməmişəm. Sadəcə qismət beləymiş. Əvvəlcə elə bilirdim ki, bunu kişimin xətrinə eləmişəm, axı onun xoşbəxtliyi üçün hər cür ağırlığa tab gətirərəm, amma məsələ onda deyilmiş. Kişim daha yoxdu. Tinasa hələ də boynumdan asılıb. Deməli, dözməliyəm.

Axı doğmalarıma xəyanət eləyə bilmərəm, mən onların qızıyam, çox zəhmətsevər və dözümlü qızam. Axı bu vaxtacan cəhənnəm yükünü - Tinanı daşıyıram.

"Sənə heyranam", - kişim deyirdi.

Əlbəttə, ömrüm-günüm. Ancaq səninlə və səndən ötrü yaşayıram.

Tinaya dözürəm, Tina mənə nifrət eləyir, mən də kişimin yanına getmək istəyirəm. Nənəm deyir ki, Adəm peyğəmbərin vaxtından belə olub: müharibə kişiləri udub. Nənəmin kişisini də müharibə aparıb! Buna görə də şikayətlənməməliyəm.

Şikayətlənmirəm, sadəcə onun yanına getmək istəyirəm. Kişimin yanına.

Mən dözümlüyəm. Amma Tinayla yaşamaq istəmirəm. Qətiyyən. Bir dəfə dözümlü olduğumu unutmaq, ondan canımı qurtarmaq istədim, amma bacarmadım. Tina heç kəsə gərək deyil. Onu həkim yanına apardım, çox savadlı, nəzakətli və insansevər qadın olan həkim də həssaslıqla, bir qədər də istehzayla başını tərpətdi; az qaldım, masanın üstündəki kaktus dibçəyini kəlləsinə çırpım!.. Həkim o sözü dilinə gətirdi. Altsheymer kəlməsini. Bunun nə demək olduğunu soruşdum, cavab verdi ki, indi Tina dəyişib Başqa adam olub. Təkcə o yox, başqaları da tam zülmətə gömülüblər. Tina artıq həminki Tina deyil. Həkim onu da dedi ki, Tina narahat olur, amma bir şeyi başa düşmədim: ya dedi, Tina narahat olur, mən sezmirəm, ya da bildirdi ki, Tina narahat olur, amma bunu özü sezmir. Soruşdum ki, indi neyləməliyəm. Həkim məsləhət gördü ki, narahat olmayım... sonra gülümsədi.

Hər halda, dibçəyi onun kəlləsinə çırpmaq lazım idi, uzaqbaşı məni həbs eləyərdilər, Tinanın qayğısınısa Allah çəkərdi. Adam gec-tez həbsxanadan çıxır, burdansa çıxış yolu yoxdu. Bəyəm, cəhənnəmdən kimsə qayıdıb?.. Cəhənnəm - əbədi olduğuna görə cəhənnəmdi.

Tinanınsa, şübhəsiz, öz istəklərindən başqa dünya vecinə deyil. Təki, arzuları gerçəkləşsin, cəmi üç sualına cavab alsın. "Artıq yüzüncü dəfədi deyirəm ki, qadınam... Heç cür yadında saxlaya bilmirsən!.."

"Qadın" - nənəm...

Fikirləşdim ki, nə qədər ki, Tina yatır, çay barədə fikirləşəcəyəm. Baş tutmadı. Onun barəsində fikirləşdim, amma çayım solğunlaşdı, quruyub yoxa çıxdı. Hələ səhər açılmayıb. Səs salmamalıyam, yoxsa Tina oyanar, çıxıb gedə bilmərəm.

Hə, bir az da keçəcək - evdən nənə, arxasınca da kandardan bayıra buğ çıxacaq. İndi kandarın üzərindən sırsıralar asılıb, qapının ağzındasa iki çəllək var. Çəlləklərin birində kələm, digərində xiyar turşusu var, çəlləklərdən turşu çıxarmazdan əvvəl içinə buz parçası atmaq lazımdı - dərhal ordan həyrətamiz iy qalxır! Kişim deyirdi ki, evdən də bu cür iy gəlir... Nənəmin çəkdiyi, ətirli otlar qatılmış araqdan yüz qram içərəm, üstündə buz dənəcikləri xırçıldayan xiyardan dişləyərəm, nənən "nuş olsun" deyər, kişim də dillənər: "Nənə, Qadınımın belə içki sevən olduğu ağlıma da gəlməzdi".

Turşu dolu camda su yığılır, otağa saman və həmişəbahar gülünün ətri dolur. Nənəm bilir ki, sobanın üstündə uzanmaq istəyirik, gülümsəyə-gülümsəyə yenə kandara çıxır ki, yenə kələm və xiyar turşusu gətirsin. Kişim astadan deyir ki, nənədən ayıb oldu, nənəmsə onun dediklərini eşidib kandardan cavab verir ki, utancaqlığını bayıra, həyətə atsın ki, Dost darıxmasın. Dost başını qaldırıb sualedici nəzərlərini bizə dikir. Biz də yenə gülürük.

Elə hey gülürdük.

Bu dəfə nənəm evdən turşu üçün çıxmır. Bayıra, şaxtalı havaya çıxır. Qapını alabəzək çatıyla bağlayır - kilidi öz bildiyi kimi vurur - sonra da dayanacağa yollanır. O, qalın qarın içiylə addımlayır, qar xırçıldayır, soyuqdu, həm də yaman soyuqdu!

Bilirəm ki, indi nənəm ən gözəl, zolaqlı tumanını geyinib, uzaqbaşı bir neçə dəqiqədən sonra tumanının ətəyi qar naxışıyla örtüləcək. Əlbəttə ki, başına ağ - bizdə başa qoyulan papaqdan da ağ - ləçək örtüb. Nənəmin əynində özüm tikdiyim, sonra məktublarımı gətirən marşrut avtobusunun sürücüsüylə göndərdiyim sırıqlı gödəkcə də var. Nənəm onu ancaq bayram və gəlişimi gözlədiyi cümə günlərində geyinir. Amma mən gəlib çıxmıram.

Nənə, gəlişimə lap az qalıb.

Nənəm, arxasınca da itlər gedirlər. İtlərdən hansının irəlidə, hansının geridə getdiyini bilmirəm. Ola bilsin, Dost Ladanı irəli buraxır ki, onu arxadan qorusun. İtlərin heç biri nənəmi heç vəch ötüb keçmir. Beləcə də gedirlər. Dayanacaq uzaqdadı, qarlı yol da daha uzun olur, həm də qar ayaqlar altında xırçıldayır... Şübhəsiz, belə şaxtalı havada da çölün üzərindən quş uçub keçir! Hətta bir neçə dəfə cikkildəyir, nənəm də bilir ki, bu doğulmamış uşağın ruhudu.

Hava yavaş-yavaş işıqlaşır. Müqəddəs dağ iri almaz kimi parıldayır, nənəm də yolla addımlaya-addımlaya astadan dua eləyir: "Ey Allahın Yeri, Allahın əməllərini apar göylərə çatdır..."

Nənəm yanıma tələsir. Məni dayanacaqda qarşılamağa hazırlaşır, sevinc içində evə gedəcəyik.

Burda da dan yeri var.

Yaxşı ki, hava tutqundu, yoxsa Tina oyanmış olardı.

Masaüstü lampanı yandırdım, divardan asılmış şəkillər göründü: mən kişimlə birgə nənəmin evinin qabağında dayanmışıq. Belə bir şəkil də nənəmin qonaq otağından asılıb: yaydı, arxada - ev və bütün dam - gül-çiçək içindədi, damda tənha vağ görünür; kişim məni qucaqlayıb, mənsə ağzı açıq, boğazında gözəl xalta olan Dostu sinəmə sıxmışam, səmada və itin qasığında ləkələr var; kişim də, mən də gülürük, hətta Dost da bizimlə birgə gülür, çünki şəkli nənəm çəkir, bacarmır, ona görə də bərk həyəcanlanır, ona lağ elədiyimizdən bir qədər də inciyir, amma baş verənlər ona da gülməli gəlir.

Kişim şəkildən iki ədəd - bizə və nənəmə - sifariş verdi. Nənəmin şəklinin çərçivəsini öz mavi rəngimizlə boyadıq, nənəm sevincindən özünə yer tapa bilmədi. Əvvəlcə elə hey şəkli öpürdü, sonra kişimi öpdü, sonra mənə dedi ki, Vasilisaya oxşayıram.

***Davamı səhifə 19-da***

*Əvvəli səhifə 18-də*

Nağıldakı Vasilisaya yox, bizim Vasilisaya. Nənəm kişimə izah elədi ki, Vasilisanın bir tərəfi gürcü idi. Daha doğrusu, onun anası gürcüydü, belə çıxır, Vasilisa yarıgürcüdü, amma yarıgürcü olmaq da az deyil... Bundan başqa, bir halda ki, bu cür kişi mənə vurulmuşdu, həqiqətən, özümü gözəl sayırdım. Ona bu barədə söyləyəndə dedi, ömründə Vasilisanı görməyib, amma həyatı boyu məndən gözəl bir kəsə rast gəlməyib, üstəlik, onun Qadınıyam. Mən də ona inandım, həddən artıq xoşbəxt oldum.

İndi həmin şəklə baxıb fikirləşirəm ki, yaxşı şəkildi, buna görə də divardan götürməməliyəm, hər halda, nənəmin evində də eynilə belə bir şəkillə qarşılaşacağam. Orda sobanın üstündə uzanıb həmin şəklə baxacağam, bayırda qar yağacaq, nənəm kitabımızdan cürbəcür əhvalatlar danışacaq... Qar dənəciklərisə göydən elə hey töküləcək...

Tina yatır.

Nənəm artıq dayanacaqda durur, soyuqdan ayaqlarını götürüb qoyur. Dost onun yanında çömbəlib. Bu məqamda Ladanın neylədiyini bilmirəm, hələ onunla tanış olmamışam, amma tezliklə görəcəyəm - o kiminsə canavarların öhdəsinə buraxdığı balaca küçük, dümağ Ladadı.

Otaqda, sandığın üstündə dörd yastıq - iri, balaca, ondan balaca və bir tərəfində nənəmin tikdiyi uzun qotazla olan lap balaca, kimişin dirsəyi altına qoyduğu yastıq - var. İrini, ən etibarlısını götürdüm. O yastığı heç kəs heç vaxt başının altına qoymur, həddən artıq iridi, səhv eləmirəmsə, daim sandığın üstündə olur.

Tina gözlərini açıb nəsə soruşmağa macal tapmamış çarpayısına yaxınlaşdım, sinəsi üstünə çöküb yastığı qüssəmin və hiddətimin bütün ağırlığıyla sifətinə basdım.

Sonra vanna otağına gedib yuyundum. Kişimi itirəndən sonra bu qədər cidd-cəhdlə və canfəşanlıqla çimməmişdim. Yaş saçlarımı hördüm ki, dağılmasın, həm də gözəl görünsün, heç kəs deməsin: "Maraqlıdı, görəsən, bu cür pinti qadın elə gözəl kişinin xoşuna necə gəlib..." Ən yaxşı, üstündə qırmızı qızılgüllər olan paltarımı geyindim, güzgüdə özümə baxıb təsəvvürümdə gözəl Vasilisanı canlandırdım. Sən demə, doğrudan da, gözəl qızam.

Tinanın əllərini sinəsini üstünə qoydum, adyalı düzəltdim, iri yastığı da, o biriləri - balacanı, ondan balacanı və uzun qotazlı lap balacanı - də sandığın üstünə qoydum.

Ətrafıma göz gəzdirdim. Mətbəxə getdim - ora da səliqəliydi, hələ dünən yığışdırmışdım, qoçaq qızam axı. Şəklə bir də nəzər salıb göz vurdum, Dostsa cavabında gülümsündü.

Pəncərəni açdım. Soyuq, tutqun səhər idi. Baş barmağımdan öpüb yuxarı qaldırdım - yaşasın yeni gün!

Nənə!

Nənə, Ladamız, doğrudan da, qar kimi dümağdı! Ey, Dost, quyruğunu ayağıma çırpma, başını da o tərəfə çək! Nənə, nənəm, nə qədər gözəlsən, əziz nənəm!

Nənəmin ləçəyi çiyninə düşüb. O, əllərini açıb şükür duası oxuyur, kişim - mənim, mənim kişim! - gülə-gülə əllərini bir-birinə vurur:

- O gəldi" Qadınım! Mənim Qadınım gəldi!

"Duxoborların həyat kitabı"nda deyilir:

"Göyün birinci qatı - dinclik, ikinci qatı - ağıllanma, üçüncü qatı - nəfs, dördüncü qatı - şəfqət, beşinci qatı - qardaşlıq, altıncı qatı - işıq, yeddinci qatı - sevgidi".

**Gürcü dilindən tərcümə edən: Nəriman ƏBDÜLRƏHMANLI**

**Kaspi.- 2017.- 13 may.- S. 19.**